**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN**

# S Ə R Ə N C A M I

**“Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Orqanik Naxçıvan” publik hüquqi şəxsin yaradılması barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 13 may tarixli 309-06/S nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Orqanik Naxçıvan” publik hüquqi şəxsin fəaliyyətinin və idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Orqanik Naxçıvan” publik hüquqi şəxsin yaradılması barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 13 may tarixli 309-06/S nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. “Orqanik Naxçıvan” publik hüquqi şəxsinin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

2.1.1. yenidən təşkili və ləğv edilməsi;

2.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.2.2. idarəetmə orqanlarının yaradılması;

2.2.3. idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2.4. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

2.3. Nazirliyə:

2.3.1. bu Sərəncamın 2.1-ci və 2.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.”;

1.2. 4.1-ci bənddən “nizamnaməsini,” sözü çıxarılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. “Orqanik Naxçıvan” publik hüquqi şəxsin yeni nizamnaməsini bir ay müddətində təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **ANAR İBRAHİMOV**

Naxçıvan şəhəri, 27 iyun 2024-cü il

№ 483-06/S